**525-ci qəzet.**-2017.-16 fevral-№ 29.-S.6.

# Odlar Yurdu İslam həmrəyliyi məşəlini alovlandırır

## Prezident İlham Əliyev 2017-ci ili Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edib

**Gülqız Muradova**

Ötən əsrdə müsəlman Şərqində dövlət quruculuğu, mədəniyyət, sənaye və digər sahələrdə ilklərə imza atan Azərbaycan bu gün İslam ölkələrinin bir araya gətirilməsində öncül mövqedədir.

İslam həmrəyliyinin gücləndirilməsi və qardaş İslam ölkələri ilə münasibətlərin daha da möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətində prioritet məsələlərdən biridir.

Azərbaycan müstəqilliyinin ilk illərindən dünya birliyinə inteqrasiya etməklə, eyni zamanda, dost, qardaş olan müsəlman ölkələri ilə də çox sıx əlaqələr qurdu. Bu gün də rəsmi Bakı bu münasibətlərin dərinləşdirilməsində çox fəaldır belə ki, bizi bir-birimizlə bağlayan ancaq ortaq maraqlar deyil, müştərək tariximiz, mədəniyyətimiz və əqidəmizdir.

Prezident İlham Əliyevin xarici siyasətində Şərq amili daim önəmli yer tutub, islam ölkələri və "müsəlman dünyasının BMT-si" sayılan İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlər yüksələn xətlə inkişaf edib. Bunu ölkə başçısının islam ölkələrinə müntəzəm səfərləri, imzalanan çoxsaylı müqavilələr, İƏT-in yığıncaqlarında fəal iştirakı və bu təşkilatın Azərbaycanla bağlı qəbul etdiyi çoxsaylı qərar və qətnamələri təsdiq edir.

Bu səbəbdəndir ki, Azərbaycan İƏT-in ən fəal üzvlərindədir və bu gün İslam aləminin, müsəlman dövlətlərinin siyasi birliyə, mənəvi həmrəyliyə və tərəfdaşlığına böyük ehtiyac duyduğu vaxtda "İslam həmrəyliyi ili" kimi bir təşəbbüs ilə çıxış edir.

### Həmrəylik və siyasət

Milli maraqlarının qorunması və beynəlxalq təhlükəsizliyin təmin olunması baxımdan beynəlxalq qurumlarla əlaqələrə ciddi əhəmiyyət verən Azərbaycanın qəbul olduğu ilk beynəlxalq təşkilat məhz İƏT-dir.

O zamanlar Azərbaycanın İƏT-ə üzv qəbul olunması həm erməni təcavüzünə məruz qalmış, eləcə də informasiya təbliğat imkanları zəif olan ölkəmizin öz haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırılması, həm də İƏT-in Ermənistan-Azərbaycan münaqişəsinə münasibət bildirməsi üçün əsas verməklə yanaşı, islam dövlətləri tərəfindən dəstəklənməsi üçün çox zəruri idi.

Tarixən Azərbaycan üçün həlledici məqamlarda bizim yanımızda olan ölkələr məhz müsəlman ölkələri olmuşdur. Bizim üçün ən ağrılı problem olan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı tərəfində duran məhz islam ölkələri olmuşdur. Ermənistanı indiyədək tanımayan Pakistan, təcavüzkar ölkə ilə sərhədləri bağlayan Türkiyə, Yerevanın beynəlxalq arenada provokasiyalarına hər zaman cavab verən Qazaxıstan ölkəmizin ən böyük dəstəkçilərindəndir.

İƏT-in timsalında digər İslam ölkələri də ölkəmizin haqlı və ədalətli mövqeyini birmənalı şəkildə dəstəkləyir. Ümumilikdə, Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanıyan ilk beynəlxalq təşkilat da məhz İƏT-dir. Bu barədə indiyədək 20-dən artıq qətnamə, bəyanat, hüquqi sənəd qəbul edən qurum "Xocalıya ədalət" kampaniyasının ümumdünya çağırışına çevrilməsinə də böyük töhfə verib. Keçən il, İƏT çərçivəsində Ermənistanın Azərbaycana qarşı təcavüzünə dair Kontakt Qrupunun yaradılması da İƏT-in bu işğalın səbəb və məqsədlərinin, onun ağır nəticələrinin dünya ictimaiyyətinə çatdırılmasında Bakıya həm dəstəkdir, həm də Bakı bu Qrupun fəaliyyətinin münaqişənin həllinə öz töhfəsini verəcəyinə əmindir.

Təsadüfi deyil ki, müsəlman ölkələri ilə mehriban və genişmiqyaslı əlaqələr quran Azərbaycan təmsil olunduğu hər bir beynəlxalq təşkilat çərçivəsində də İslam dünyasının maraq və mənafelərini müdafiə edir. İslam ölkələrinin qarşılaşdığı problemlərin həlli ilə bağlı Azərbaycan hər zaman həll yollarının tapılmasına və dialoq yaradılmasına çalışır.

Təəssüflə qeyd etmək gərəkdir ki, dünyada baş verən qanlı qarşıdurmaların əksər hissəsi məhz müsəlman ölkələrini əhatə edir. Əgər bunun bir səbəbi müəyyən xarici dairələrin öz maraqlarını müsəlman cəmiyyətlərində

həyata keçirmələridirsə, digər səbəbi İslam dininə sitayiş edənlər arasında sürətli parçalanmanın mövcud olmasıdır. Əfsuslar, məzhəb ayrı-seçkiliyi bu gün İslamın ən ağrılı problemi olaraq qalır. Eyni zamanda, İslam dininə qarşı ədalətsiz münasibət sərgilənir. Bəzi ölkələrdə islamofobiya meylləri güclənir.

Bu fonda, Azərbaycanın gücü, nüfuzu və imkanları, o cümlədən, mövcud potensialı və beynəlxalq ictimaiyyətin ona olan etimadı İslam həmrəyliyinə nail olunması kimi mühüm missiyanı üzərinə götürməyə imkan verir.

Əhalinin əksəriyyəti müsəlman olan Azərbaycandakı dini münasibətlər ən düzgün və zamanın sınaqlarından layiqincə çıxan modeldir. Bu da ondan irəli gəlir ki, Azərbaycan xalqı İslamın gözəlliklərini, saflığını hər zaman qoruyub saxlayıb. Burada dinin dövlətdən ayrı olmasına baxmayaraq, dövlət-din münasibətləri sağlam təməllər üzərində formalaşaraq dövlətçiliyimizin möhkəmlənməsinə xidmət edir. Əksər müsəlman cəmiyyətlərindən fərqli olaraq, Azərbaycanda müqəddəs dinimiz xalqımızı birləşdirir, həmrəy edir, dövlətimizin möhkəmlənməsinə və yüksəlməsinə xidmət edir.

Ölkəmizin digər bir xüsusiyyəti isə ondan ibarətdir ki, ölkə bütün İslam aləmində dünyəvi dövlətçiliyin nadir modellərindən biri, həm də ən yüksək tolerant dəyərlərin daşıyıcısıdır. Bu gün Azərbaycanda bütün digər dinlərin təmsilçiləri kilsələrə, sinaqoqlara gedərək öz dini ayinlərini sərbəst icra edirlər. Əlbəttə ki, multikulturalizm öz-özlüyündə dünyanın və bəşəriyyətin əsas qayələrindən biri kimi əsas diqqət mərkəzi olmalıdır. İslam həmrəyliyi isə onun tərkib hissələrindən biri kimi çıxış edir.

Qlobal miqyasda sülh və əməkdaşlığa, sivilizasiyalararası dialoqa böyük töhfə verən Azərbaycan həmçinin İƏT ilə digər təşkilatlar arasında əlaqələrin gücləndirilməsi üçün çalışan əsas tərəfdir.

İlk dəfə olaraq məhz ölkəmizin təşəbbüsü ilə 2013-cü ildə BMT və İƏT arasında tərəfdaşlıq əlaqələrinin gücləndirilməsi məsələsi müzakirə olunmağa başladı. Daha öncə, 2008-ci ildə Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərinin Bakıda keçirilmiş toplantısına ölkəmiz müsəlman dövlətlərinin mədəniyyət nazirlərini dəvət etdi. 2009-cu ildə isə Bakıda müsəlman ölkələrinin mədəniyyət nazirlərinin toplantısına Avropa Şurasından nazirlər dəvət edildi. Bu mənada reallıq göstərir ki, Azərbaycan öz nüfuzundan və təcrübəsindən irəli gələrək müsəlman ölkələri arasında da birləşdirici və barışdırıcı rol oynamağa qadirdir.

Bu baxımdan 2017-ci ilin "İslam həmrəyliyi ili" elan edilməsi humanist və uzaqgörən bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan inamı və diqqətinin göstəricisidir. Bu təşəbbüs dünyada İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində əməli addımların atılmasına, o cümlədən, müsəlman ölkələri arasında əməkdaşlıq əlaqələrinin daha da güclənməsinə öz töhfəsini verəcək.

"İslam həmrəyliyi ili"nin əsas amalı odur ki, müsəlman ölkələri iqtisadi, siyasi və mənəvi cəhətdən bir-birinə daha sıx bağlansın, bir-birini ciddi şəkildə müdafiə etsinlər və bu istiqamətdə Azərbaycan yeni fəaliyyət mərhələsinə qədəm qoyur: ölkəmiz İslam həmrəyliyinin ideya və real fəaliyyət mərkəzinə çevrilir.

## İqtisadi əməkdaşlıq

"İslam həmrəyliyi ili" yalnız dini və siyasi həmrəyliyi deyil, eyni zamanda iqtisadi, mənəvi və ölkələrarası münasibətlərin bütün aspektlərinə sağlamlaşdırıcı təsir göstərə biləcək bir fəaliyyəti nəzərdə tutur.

Bu gün dünyanın iqtisadi payında İslam ölkələrinin xüsusi çəkisi 8,5 faizdir ki, bu rəqəm o qədər də böyük deyil. Bunun da səbəbi müsəlman ölkələrində baş verən toqquşmalar, müharibələrdir. Ümumilikdə dünyanın enerji ehtiyatlarının 80%-i İƏT-ə üzv dövlətlərin payına düşür. Təşkilata daxil olan ölkələrdən bəzilərinin enerji resursları ilə daha zəngin olması İƏT-in iqtisadi siyasətinin inkişafına ciddi təkan verə bilər.

Ekspertlər qeyd edir ki, iqtisadi əməkdaşlığın genişləndirilməsi üçün, İƏT üzv dövlətlər arasında sərmayələr artmalıdır və bu sahədə geniş imkanlar mövcuddur. İƏT-in üzvü olan dövlətlər arasında eyni layihələr və investorlarla rəqabətə girmək yox, əvəzləmə prinsipi əsasında çalışmalıdır.

Eyni zamanda, dünya üzrə gənclər arasında işsizlik faizi orta olaraq 13 faizdirsə, İƏT üzv ölkələr arasında işsizlik faizi 15 faizdən yuxarıdır. Bütün bunları nəzərə alaraq, tezliklə İƏT-in Bakıda yerləşəcək Əmək Mərkəzi fəaliyyətə başlayacaq. Bu mərkəzin yaradılması təşəbbüsü Prezident İlham Əliyevə məxsusdur. Mərkəzin əsas istiqamətlərindən biri üzv ölkələrdə işsizliyin səviyyəsinin azalmasına təkan vermək olacaq və İƏT- üzv olan ölkələr arasında belə bir əməkdaşlığın stimullaşdırılmasına dəstək olacaq.

O ki qaldı, İslam ölkələri ilə Azərbaycan arasında iqtisadi əlaqələrin gələcəyinə, qarşılıqlı investisiya sahəsində əməkdaşlıq imkanları olduqca genişdir. Bu gün Azərbaycanın liderliyi ilə çox mühüm transmilli

layihələr həyata keçirilir, bu layihələr yalnız ölkəmiz üçün deyil, həm də geniş bir regiona iqtisadi dirçəliş gətirə biləcək layihələrdir.

Azərbaycan son illər İƏT-in ən böyük maliyyə institutu sayılan İslam İnkişaf Bankı ilə dinamik əməkdaşlıq həyata keçirmiş və münasibətlər getdikcə daha da genişlənməkdədir. Qeyd etmək lazımdır ki, İİB müstəqilliyin ilk illərində qaçqın və məcburi köçkün həyatı yaşayan azərbaycanlılara maliyyə və humanitar yardımlar göstərmişdir.

İİB ilə əməkdaşlıq Azərbaycanın həm də İƏT üzvləri ilə yaxınlaşmasına müsbət təsir göstərir. Bu səbəbdən Azərbaycanın müsəlman ölkələri ilə diplomatik münasibətlərində sosial-iqtisadi layihələrə də son illər maraq artmış və respublikada müxtəlif sahələrin inkişafına sərmayə qoyan müsəlman ölkələrinin investorlarının sayı artmışdır.

Yaxın günlərdə ölkəmizdə səfərdə olan İİB-nin vitse-prezidenti Sayed Ağa vurğulayıb ki, Azərbaycan hökumətini iqtisadiyyatın neftdən asılı olmayan modelinə keçiddə dəstəkləməyə hazırdır. O həmçinin qeyd edib ki, İİB "Cənub Qaz Dəhlizi" layihəsinin və eyni zamanda "Şimal-Cənub" dəhlizinin maliyyələşdirilməsində iştirak etməyə hazırdır.

Ümumilikdə, əməkdaşlığın əvvəlindən bank ölkədəki layihələrə 1,3 milyard dollardan çox pul ayırıb. Hazırda Azərbaycanda təxminən 400 milyon dollar məbləğində layihələrin reallaşdırılması davam edir.

Eyni zamanda, Azərbaycan gözəl iqlimi, əlverişli coğrafi şəraiti, müasir turizm infrastrukturu olan ölkədir və ölkə müsəlman turistlərinin cəlb olunmasında maraqlıdır. Bir sıra müsəlman ölkələrin, o cümlədən, Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn və Küveyt vətəndaşları üçün 2016-cı ildən etibarən hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinə başlanması ölkəmizə səyahət edən xarici turistlərin sayını əhəmiyyətli dərəcədə artırıb. Bu baxımdan, Azərbaycanın turizm sektorunda bu ölkənin şirkətləri üçün çoxlu investisiya imkanları mövcuddur.

## Humanitar əlaqələr

Azərbaycanın İƏT ilə münasibətləri çərçivəsində elmi-mədəni əlaqələrin də inkişafına xüsusi diqqət yetirir. Bu baxımdan İƏT çərçivəsində ikitərəfli mədəni əlaqələrdə Azərbaycanın təşkilatın digər ixtisaslaşmış qurumları ilə yanaşı İSESKO ilə əməkdaşlığı daha çox nəzərə çarpır. Bakı şəhəri 2009-cu ildə ISESKO-nun dəstəyi ilə İslam mədəniyyətinin paytaxtı elan edilib. 2018-ci ildə isə bu şərəfli ada bizim digər qədim şəhərimiz Naxçıvan layiq görülüb ki, bu Azərbaycana, ölkənin mədəniyyətinə və bu gün Azərbaycanın İslam aləmində oynadığı rola verilən yüksək qiymətdir.

Azərbaycan-İƏT elmi-mədəni əlaqələrinin inkişaf etdirilərək bugünkü yüksək səviyyəyə çatdırılması həm də Heydər Əliyev Fondunun İSESKO ilə birgə həyata keçirdiyi beynəlxalq konfrans, simpozium, seminar və digər elmi-mədəni tədbirlərlə də sıx bağlıdır. Bu baxımdan Azərbaycanın beynəlxalq arenada elmi-mədəni münasibətlərinin yüksək templə inkişafı Fondun Prezidenti, İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın adı ilə bağlıdır.

İSESKO-nun baş katibi Əbdüləziz bin Osman əl-Tüveyrci qəzetimizə müsahibələrindən birində qeyd etmişdi ki, Azərbaycan İslam dəyərlərini təşkil edən və İslam tərəfindən təbliğ edilən, ortaq mövqe, qardaşlıq sevgisi, tolerantlıq, sülh və müxtəlifliklərə hörmət kimi məfhumların təşviqinə böyük səylər sərf edir. Bu sahədə görülən ən böyük işlərdən biri də məhz, onun fikrincə, Bakı Beynəlxalq Humanitar Forumu olub.

O həmçinin qeyd edib ki, Azərbaycan beynəlxalq arenada mədəniyyətlər arasında dialoqu inkişaf etdirən, sülh və təhlükəsizlik naminə çalışan böyük iştirakçı dövlətdir.

Mütəmadi olaraq mədəniyyətlər və dinlərarası dialoqa öz töhfəsini verən Azərbaycan müsəlman aləmində birinci ölkədir ki, Vatikanda öz sərgisini nümayiş etdirə bilmiş və burada İslam mədəniyyətini təbliğ etməyə nail olmuşdur.

Tezliklə paytaxt Bakıda baş tutacaq İslam Həmrəyliyi Oyunlarının keçirilməsi ilə bağlı qərar isə ölkəmizin İslam həmrəyliyinin möhkəmləndirilməsi sahəsində növbəti əməli addımlar atması üçün əlverişli şərait yaradır. Prezident İlham Əliyevin də dəfələrlə qeyd etdiyi kimi İslam Oyunları təkcə idman yarışı olmayacaq, eyni zamanda, birliyimizin, müsəlman aləmində gənc nəsillərimizin həmrəyliyinin günləri olacaq.

Azərbaycan həm də müsəlman ölkələrinin media ictimaiyyəti arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində məqsədyönlü addımlar atır. 2016-cı ilin oktyabrında Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv Dövlətlərin Jurnalistləri Assosiasiyasının niyyət konfransı keçirilib. Bu təşəbbüs reallığa çevrilərək müsəlman

ölkələrinin jurnalistləri arasında əlaqələrin möhkəmlənməsinə, onların İslam dünyasının ortaq maraqlarının müdafiəsi üçün səfərbər olunmasına böyük töhfə verəcək.